# 20 Yanvar faciəsi "dəyirmi masa" ətrafında anıldı

**"Heydər Əliyev İli" çərçivəsində Ağcabədi rayonunda silsilə tədbirlərin keçirilməsi davam edir.**




Hazırlanmış tədbirlər planına əsasən, Ağcabədi Tarix-Diyarşünaslıq Muzeyində "20 Yanvar həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında Ümummilli Lider Heydər Əliyevin rolu" mövzusunda "dəyirmi masa" keçirilmişdir.

Rayon icra hakimiyyəti və Ağcabədi Mərkəzləşdirilmiş Kitabxana Sisteminin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə mədəniyyət işçiləri və media nümayəndələri iştirak etmişlər. Anım iştirakçıları öncə foyedə təşkil edilmiş rəsm və kitab sərgisi ilə tanış olmuşlar. Sonra Ulu Öndər Heydər Əliyevin və azadlıq uğrunda canlarından keçən qəhrəmanların xatirəsi birdəqiqəlik sükutla yad edilmiş, Dövlət himni səsləndirilmişdir.

Çıxış edənlər Qanlı Yanvar faciəsindən, həmin hadisələrin dünyaya çatdırılmasında Heydər Əliyevin rolundan danışmışlar. Müdhiş gecənin səhəri günü Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gedərək kəskin bəyanatla çıxış edən Heydər Əliyevin bu addımının böyük cəsarət tələb etdiyini vurğulayan natiqlər məhz həmin gün SSRİ rəhbərliyinin iç üzünün bütün dünyada ifşa olunduğunu diqqətə çatdırmışlar. Həmçinin o da qeyd olunmuşdur ki, 20 Yanvar faciəsinə siyasi qiymət verilməsi də məhz Heydər Əliyevin sayəsində mümkün olmuşdur.

***Gündüz SEVİNDİK,***
***Ağcabədi***

Azərbaycan.- 2023.-20 yanvar.- S.16.